Вышка

5 fevral / 2021

# YAŞA, AZƏRBAYCANIM

Damarda qaynar qanım,
Oyanıbdı... vicdanım,
Sənə fəda bu canım,
Dalğalansın bayrağım,
Yaşa, Azərbaycanım!
İlhamımdan güc aldın,
Qeyrətinlə ucaldın,
Dolub yaşa, qocaldın,
Dalğalansın bayrağım,
Yaşa, Azərbaycanım!
Zirvəyə yol açmısan,
Şimşək kimi çaxmısan,
Hər yana nur saçmısan,
Dalğalansın bayrağım,
Yaşa, Azərbaycanım!
Haqq yoludur tutduğun,
Şahinlər tək uçduğun,
Bəstir.., daha susduğun,
Dalğalansın bayrağım,
Yaşa, Azərbaycanım!
Gəlib çatdın ərsəyə,
Yağı düşdü lərzəyə,

Qol çirmədin dirsəyə,
Mənim şöhrətim-şanım,
Dalğalansın bayrağım,
Yaşa, Azərbaycanım!

## GÖRDÜM

Bu gecə yuxuda.., ay ala gözlüm,
Səni qəmli gördüm, kədərli gördüm!
Qohumdan-qonşudan, dostdan-tanışdan,
Əlləri üzülmüş, qəhərli gördüm.
Gördüm ün salmısan elə-obaya,
Ünün yüksəlirdi Günəşə, Aya,
İstədim ki, cavab verəm bu haya,
Harayım yetmədi, pərişan oldum.
Elə bil qatdılar zəhər.., balıma,
Göydən ildırımlar çaxdı başıma,
Xəzan düşdü qəlbə, könül bağıma,
Özümə əzabdan bir qala qurdum.
Görəsən nə, idi bu ağrı, təlaş?
Yoxsa, ayrılırıq biz yavaş-yavaş,
Dünyada qəm-kədər olmayaydı kaş,
Düşünüb-düşünüb özümü yordum.
Səni qəmli gördüm, kədərli gördüm!

**Oqtay ƏLİZADƏ.**